# HACIQABUL

№ 08 (688)

5 aprel 2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Bir əsrin qanlı tarixi

## 31 mart azərbaycanlıların soyqırımı günü





***1918-ci ildə Azərbaycan xalqına qarşı törədilmiş soyqırım hadisəsindən 100 il ötür. 1918-ci il mart-aprel aylarında Bakı şəhəri də daxil olmaqla ölkəmizin bir çox şəhər və rayonlarında törədilmiş kütləvi qırğınlar nəticəsində minlərlə dinc sakin ermənilər tərəfindən amansızcasına qətlə yetirilmişdir. Tarix boyu Azərbaycan xalqı dəfələrlə ermənilərin fitnə-fəsadına tuş gəlib. Öz tarixlərini saxtakarlıqla yazan, əzəli Azərbaycan torpaqlarında dövlət quran, maddi və mədəniyyət abidələrimizi mənimsəyib öz adlarına çıxmağa çalışan ermənilər zaman-zaman azərbaycanlılara qarşı misli görünməmiş qətliamlar törədiblər. Etnik mənsubiyyətlərini yalan üzərində formalaşdıran ermənilərin 1918-ci ilin martında havadarlarının köməyi ilə azərbaycanlılara qarşı törətdikləri soyqırımın miqyası isə daha böyükdür.***

Azərbaycanın tarixində faciəli, qanlı-qadalı günlər çox olub. Xalqımızın həyat salnaməsini vərəqlədikcə əsrlər boyu başımıza gələnlərin şahidinə çevrilirik, əcdadlarımızın, ata-babalarımızın zaman-zaman düçar olduqları bəlaları göz önünə gətiririk. Yüz illər boyu Azərbaycan xalqına qarşı davam etmiş erməni dəhşətləri 1918-ci ilin martında özünün pik nöqtəsinə çatdı.

1918-ci ilin 31 mart günü azərbaycanlılar erməni daşnakları tərəfindən kütləvi surətdə soyqırıma məruz qalmışdır. 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş qırğınların Bakı, Quba, Lənkəran, Şamaxı, Kürdəmir, Zəngəzur, Naxçıvan Hacıqabul və digər bölgələrdə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilib, minlərlə insan öz doğma torpaqlarından didərgin düşüb, evlər dağıdılıb, talan edilib, yandırılmışdır.

31 mart, 1-2 aprel Bakı qırğınları zamanı erməni quldur dəstələri üç istiqamətə bölünərək Azərbaycanın bütün bölgələrinə səpələnmiş, kütləvi qırğınlar törətmişlər.

Həmin dövrdə Hacıqabulun ərazisində yerləşən 17 kənddə də qırğınlar törədilmişdir. Rayonun Navahı kəndində 955 nəfər, QubalıBaloğlan kəndində 535 nəfər, Rəncbər kəndində 137 nəfər, Padar kəndində 120 nəfər, Abdulabad kəndində 90 nəfər, Şorbaçı kəndində 50 nəfər, Meyniman kəndində 45 nəfər, Paşalı kəndində 40 nəfər, Xilə kəndində 11 nəfər insan ən qəddar üsullarla qətlə yetirilmişdir. İnsanlara külli miqdarda maddi və mənəvi ziyan vurulmuş, evləri talan olunmuş, yandırılmış, heyvanları məhv edilmiş, ermənilər tərəfindən aparılmışdır.

31 mart soyqırımına ulu öndər Heydər Əliyev tərəfindən ilk dəfə hüquqi və siyasi qiymət verilməsi mühüm siyasi tarixi əhəmiyyət daşıyır. Ümummilli lider 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" müvafiq fərman imzalayıb. Həmin fərmana əsasən 1918-ci ildə baş verən soyqırım hadisələrinə siyasi-hüquqi qiymət verilib və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

İndi həmin gün Azərbaycanın bütün bölgələrində soyqırım qurbanları anılır, yad edilir. Həmin gün rayonumuzda da tədbirlər keçirildi, soyqırım qurbanları anıldı, ruhuna dualar oxundu.

Rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, hüquq-mühafizə orqanlarının rəhbərləri və şəxsi heyəti, rayonun idarə, müəssisə, təşkilatlarının əmək kollektivləri, ictimaiyyət nümayəndələri rayonumuzun Dağüstü Massivində salınmış Abidə Kompleksi və Şəhidlər Xiyabanında oldular, şəhidlərin, soyqırım qurbanlarının ruhuna dualar oxundu, abidə-kompleks və şəhidlərin qəbirləri üzərinə al qərənfillər düzüldü.

***"Hacıqabul"***

# Pambıqçılığın inkişafı və məhsuldarlığın artırılmasına dair müşavirə keçirilmişdir

***Müşavirədə Azərbaycan Respublikası Prezident Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri İbrahim Mustafayev və həmin şöbənin baş məsləhətçisi Xəzər Qarakişiyev, rayonun aidiyyatı idarə, müəssisə və təşkilat rəhbərləri, İƏD üzrə nümayəndələr, bələdiyyə sədrləri, pambıqçılıqla məşğul olan fermerler, torpaq mülkiyyətçiləri, sahibkarlar iştirak edirdi.***

Tədbiri açan rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov rayonda pambıqçılığın inkişafı ilə bağlı görülən işlərdən, qarşıya çıxan problemlərin həlli yollarından, pambıqçılıq və digər kənd təsərrüfatı sahələrinin genişləndirilməsi istiqamətində görülən işlərdən danışdı. Martın 26-da Prezident İlham Əliyevin Bərdədə pambıqçılığın inkişafına dair keçirdiyi müşavirədə söylədiyi fikir və müddəaları tədbir iştirakçılarının nəzərinə çatdırdı. Qeyd etdi ki, dövlət başçısının iştirakı ilə Bərdədə keçirilən müşavirə pambıqçılığın inkişafına dair respublikada keçirilən 3-cü müşavirə idi. Bu müşavirələrdə verilən tapşırıqlar, qarşıya qoyulan hədəflər pambıqçılıqda nailiyyət qazanılmasına təkan verib. Pambıqçılığın bərpası istiqamətində görülən işlər bu sahənin gələcəyinin uğurlu olacağına əminlik yaradır.

Aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılığın inkişafı ilə bağlı aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq iki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatıb.

Pambıq əkininə verilən subsidiyalar, gübrə və pestisidlərin istifadəsinə tətbiq olunan güzəştlər, "Aqrolizinq" ASC tərəfindən texnikaların güzəştli şərtlərlə satılması, Sahibkarlığa Kömək Fondu tərəfindən güzəştli şərtlərlə ayrılan kreditlər bu sahənin inkişafına müsbət təsirini göstərir. Cari mövsümdə pambığın alış qiymətinin hər kiloqramı üçün 0,10 AZN artırılaraq 0,60 AZN-ə çatdırılması, gübrələrə verilən güzəştlərin isə 5 dəfə artırılması pambıqçıları sevindirir, bu sahəni daha gəlirli və torpaq mülkiyyətçiləri, fermerlər üçün cəlbedici edib.

RİH Başçısı qeyd etdi ki, müşavirədə görülmüş işlərlə yanaşı qarşıda duran vəzifələrdən də danışıldı, məhsuldarlığı daha da artırmaq üçün tapşırıqlar verildi.

Sonra çıxış edən rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Nurbala Mirzəyev ötən il pambıq əkinlərində olan nöqsanların bu il təkrarlanmaması üçün daha səmərəli işlər görüləcəyini qeyd etdi. Vurğuladı ki, cari ildə rayonda 1300 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Pambıq əkiləcək sahələrin əsas hissəsi dağətəyi ərazidə yerləşdiyindən həmin ərazilərdə səpin səpsuvar üsulu ilə aparılacaq. Kürqırağı ərazilərdə isə əkin yerləri arat olunmuşdur.

Müşavirədə bütün torpaq mülkiyyətçiləri, fermerlər öz fikir və mülahizələrini bildirdilər.Keyfiyyətli çiyid və ziyanvericilərə qarşı dərmanların pambıqçılıqda məhsuldarlığın aşağı düşməməsinin başlıca şərti olduğunu bildirdilər. Bildirildi ki, əlverişli hava şəraiti olarsa səpinə aprel ayının birinci ongünlüyündə başlanması üçün hazırlıq tədbirləri görülüb. İstehsalçılar hər hektardan 20 sentner məhsul götürməyi qarşılarına məqsəd qoyublar.

Çıxışlarda çiyid səpini zamanı qarşıya çıxa biləcək çətinliklər də geniş müzakirə olundu.

Bütün təklif və fikirlər dinlənildikdən sonra Prezident Administrasiyasının məsul işçisi İbrahim Mustafayev öz fikirlərini bildirdi, qeyd etdi ki, əmək tutumlu sahə olan pambıqçılığın inkişafı ilə bağlı minlərlə insan üçün iş yeri açılır, insanlar evlərinə çörək pulu aparır. Bu əlbəttə rayonlarda işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Bunun üçün də məhsuldarlıq artırılmalı, ötən illərdəki nöqsanlar, geriləmələr aradan qaldırılmalıdır.

Ümidvarıq ki, mövsüm ərzində mövcud olan, qarşıya çıxacaq problemlər dərhal öz həllini tapacaq, hacıqabullular bu mövsümü maksimum səmərə ilə başa vuracaqlar.

***"Hacıqabul"***

# Yurdumuza bahar gəlib

## *Hacıqabullular baharın gəlişini və Novruz bayramını şən və mənalı qarşıladılar*



***Qədim tarixə bağlı Novruz əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.***

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır.

Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz ulu öndərin siyasətində milli bayramımız olan Novruz ötən əsrin 70-80-cı illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Ulu öndərin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün respublika prezidenti İlham Əliyev də milli-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il Azərbaycan xalqına ünvanladığı təbriklər Onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Bu bayram həm adi insan, həm millət, həm xalq, həm də dövlət bayramıdır. Təbiətin oyanışı, həyatın canlanması, ruzi-bərəkət, gözəllik, təravət rəmzi olan Novruz bayramı münasibəti ilə Hacıqabul rayonunda ümumrayon şənliyi keçirildi. Al-əlvan geyimli oğlan və qızlar, milli geyimli uşaqlar, müxtəlif idman oyunları göstərən kiçik idmançılar tədbirdə şən əhval-ruhiyyə yaradırdı. Bəzənmiş bayram xonçaları, səmənilər masaların üzərini bəzəyirdi.

Rayon İcra Hakimiyyətinin inzibati binasının yaxınlığında böyük bayram tonqalı ucaldılmışdı. Bayram tonqalını alışdıran RİH Başçısı şənlikdə iştirak etmək üçün böyük meydana gəldi. Meydanda bir tərəfdə ana-bacılarımızın bişirdiyi yuxanın, bir tərəfdə qızların bişirdiyi




şəkərbura, qoğalın, bir tərəfdə qaynayan samovarların xoş ətri ətrafa yayılmışdı. Burada əsil kənd həyatı mənzərəsi var idi. Bir tərəfdə quzuların mələrtisi eşidilir, bir tərəfdə uşaqlar xoruz döyüşdürürdülər.

Meydana daxil olan Dədə Qorquq və Bahar qız xeyir-dua verərək Novruz bayramının xalqımıza xoşbəxtlik, firavanlıq və bol ruzi-bərəkət gətirməsini arzuladı. Kosa və Keçəlin duzlu-məzəli söhbətləri, zarafatları, respublikamızın tanınmış incəsənət ustalarının bir-birindən şən mahnıları, milli geyimli uşaqların rəqsləri şənliyə rəngarənglik qatdı. Müğənnilərin ifasında yurdumuza qədəm qoyan baharı, vətənimizi tərənnüm edən bayram ab-havalı mahnılar hamıda xoş ovqat yaratdı, onların bayram sevincini daha da artırdı.



Bayram şənliyi günün ikinci yarısına kimi davam etdi.

**"Hacıqabul"**

# Pirsaatçay kəndində səyyar qəbul-görüş keçirildi



***Rayon İcra Hakimiyyəti başçısı Əhməd Muxtarovun rayonun Pirsaatçay kəndində növbəti səyyar qəbul-görüşü keçirilmişdir. Görüşdə rayonun idarə, müəssisə və təşkilat rəhbərləri və Pirsaatçay və Qubalıbaloğlan kəndinin sakinləri iştirak etmişdir.***

Rayon İcra Hakimiyyətinin başçısı çıxış edərək son illərdə rayonun sosial-iqtisadi inkişafından, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə kənd sakinlərinə məlumat verdi. Görüş zamanı kənd sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alındı və icrası ilə əlaqədar yerində aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verildi.

Kənd sakinləri yerlərdə keçirilən görüşlərdən razı qaldıqlarını qeyd edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

# Vətənimizlə tanışlıq şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır



***"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində 40 nəfər hacıqabullu məktəbli martın 26-da Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyaya yola salındı. Məktəblilər əvvəlcə ulu öndər***



***Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdülər. Ulu öndərə ehtiramlarını bildirdilər. Rayon İcra Hakimiyyətinin 1-ci müavini Aslan Səmədov məktəblilər qarşısında çıxış edərək onlara uğurlu yol arzuladı, tur-aksiyanın əhəmiyyətindən, onların düngörüşünün formalaşmasındakı rolundan danışdı. Sonra məktəblilər onlar üçün ayrılmış avtobusla şimal bölgəsinə yola salındılar.***

Azərbaycanın "şimal qapısı" sayılan Qusarda məktəblilər rayonun tarixi, təbii gözəllikləri, qədim mədəniyyəti, abidələri, sənətkarlıq nümunələri ilə tanış olublar.

Burada onlar "Şahdağ" Turizm Mərkəzi ilə də tanış olmuş, hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumat almışlar.Həzrə kəndinə də ekskursiya edən məktəblilər burada Şeyx Güneyd türbəsini ziyarət etmiş, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxmışlar. Məktəblilər tur-aksiya zamanı rayon Tarix-Diyarşünaslıq Muzeyinə və Olimpiya İdman Kompleksinə də ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları aksiya zamanı şimal bölgəsinin bütün görməli, tarixi yerlərini gəzmiş, iqtisadiyyatı, mədəniyyəti haqqında zəngin məlumatlar əldə etmişlər.

**"Hacıqabul"**

# İnsanlığa qarşı törədilmiş ən ağır cinayət

***1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törədilmiş soyqırım cinayətlərindən 100 il ötür. O dövrdə Bakı şəhərində, eləcə də Azərbaycanın bir çox şəhər və kəndlərində on minlərlə dinc sakinin etnik və dini mənsubiyyətinə görə məhv edilməsi, yaşayış məntəqələrinin dağıdılması, mədəniyyət abidələrinin, təsərrüfatlarının yerlə yeksan edilməsi "böyük Ermənistan" xülyası naminə erməni şovinistlərinin xalqımıza qarşı mərhələ-mərhələ həyata keçirdikləri etnik təmizləmə siyasətinin ən qanlı səhifələrindən birini təşkil etmişdir.***

Hələ 1905-1906-cı illərdə ermənilər yüzlərlə Azərbaycan kəndini talan etmiş, insanları xüsusi qəddarlıqla qətlə yetirmişdilər.1918-ci il mart soyqırımı bu cinayət əməlləri silsiləsinin ən dəhşətlilərindən biri olub.

1948-ci ildə də Azərbaycan xalqının qətli ilə yanaşı, sürgünlərə də nail olmuşdur. 1988-ci ildə erməni mənfurları növbəti dəfə azərbaycanlılara qarşı soyqırımı törətməklə kimliklərini bir daha sübuta yetirdilər. Qarabağın bir neçə kəndində, Xocalıda misligörünməmiş soyqırım törətdilər.

*(davamı səh. 4-də)*

# Həm iqtisadiyyatda, həm də idmanda uğur qazanan insan



***Bəxtiyar Bərxudarov Kapital Bank-ın Hacıqabul rayon filialının müdiridir. 2017-ci ilin sentyabr ayından rayon filialına müdir təyin olunub.***

Əslən Yevlax rayonundandır. 2001-ci ildə Yevlax şəhər 9 saylı tam orta məktəbi bitirib. Həmin ildə də Azərbaycan İqtisad Universitetinə daxil olub.2005-ci ildə universiteti bitirdikdən sonra hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vurduqdan sonra-2007-ci ildə Azərbaycan Neft Akademiyasında magistr təhsili alıb və 2009-cu ildə magistraturanı bitirib. Müxtəlif işlərdə çalışıb. 2007-ci ildən isə bank sektorunda çalışır.

Əvvəl Yevlax rayon AGBanka direktor müavini, 2015-ci ilin sentyabr ayından Kapital Bank-ın Kürdəmir rayon filialına müdir təyin olunub.

2017-ci ilin sentyabr ayından isə Kapital Bank-ın Hacıqabul rayon filialının müdiridir. Az müddət ərzində bankda yaradılan səliqə-sahman, müştərilərlə nümunəvi xidmət rayon əhalisi arasında hörmət-izzətə səbəb olub.

Biz bu günlərdə bank müdirinin idman sahəsində əldə etdiyi bir uğurunun, istedadının şahidi olduq.

Bəxtiyar Bərxudarov Ağır Atletikanın ağırlıqqaldırma növü üzrə keçirilən Açıq Respublika çempionatında çıxış edərək 3-cü yerə çıxmış, bürünc medal və Diplomla təltif olunmuşdur. Sevindirici hal budur ki,o doğma rayonumuzu təmsil etmiş və Hacıqabulun idman şərəfini yüksəklərə qaldırmışdır.

Özünün dediyinə görə idmana həvəsi uşaqlıqdandır. Məktəb və gənclik illərində sərbəst güləş, güləş, sambo və idmanın bir çox növləri ilə həvəskar kimi məşğul olub. Qeyd edir ki, idman onun həyatının ayrılmaz hissəsidir. Lakin bank sektoruna keçdikdən sonra işin məsuliyyəti, vaxtın azlığı onu idmandan uzaqlaşdırıb. Vaxt ötdükcə oturaq həyat tərzinə alışmayan B.Bərxudarov özü üçün daha spesifik idman növü seçməyə qərar verir və idmançı dostlarının məsləhətindən sonra ağırlıqqaldırma idman növü ilə məşğul olmağa qərar verir. 2017-ci ildən artıq idmanın ağırlıqqaldırma növü ilə məşğul olmağa başlayır və az müddət ərzində böyük nəticələr əldə edir. Elə həmin il Mingəçevirdə keçirilən zona birinciliyində 90 kq çəki dərəcəsində 155 kq nəticə göstərir, 1-ci yerə çıxaraq qızıl medal qazanır.




Bu ilin mart ayında isə Bakıda keçirilən Açıq Respublika Çempionatında 90 kq çəki dərəcəsində 157,5 kq nəticə göstərərək 3-cü yerə çıxmış, bürünc medal və Diplomla təltif olunmuşdur. Əlbəttə, həm Azərbaycandan, həm də bir neçə xarici dövlətin idmançısı qatılmış bu yarışda belə bir qalibiyyət əldə etmək böyük bir nailiyyətdir.

Söhbət əsnasında gənc idmançının az bir müddət ərzində belə bir göstəriciyə necə nail olduğu ilə maraqlandıq. Dediyinə görə, bütün idman növlərində olduğu kimi ağırlıqqaldırma idmanının əsas keyfiyyətlərindən biri fiziki hazırlığın təşkilidir. Fiziki hazırlıq isə idmançının idmana hazırlığının əsasını təşkil edir. İdmançı öz idman növündən əlavə digər idman növləri və burada olan fiziki hərəkətlərlə məşğul olmaqla öz ümumi fiziki hazırlığını daha da təkmilləşdirir. Qeyd etdimiz kimi, qəhrəmanımız əvvəllər idmanın bir çox növü ilə həvəskar kimi məşğul olub. Ağırlıqqaldırmanın fiziki hazırlığı onun fiziki keyfiyyətləri ilə müəyyən olunur ki, bu da idmançıda olan qüvvə, sürət, dözümlülük, soyuqqanlılıq, cəldlik, elastiklikdir.

Qeyd edək ki, Bəxtiyar Bərxudarov idmanın ağırlıqqaldırma növü üzrə Azərbaycanın yığma komandasının tərkibində dünya çempionatında iştirak etmək üçün hazırlaşır.

Bütün bu nailiyyətlər və qələbələr münasibətilə həm gənc bank rəhbəri , həm də qalib idmançımız Bəxtiyar Bərxudarovu rayon ictimaiyyəti, idmansevərləri adından təbrik edir, gələcəkdə daha böyük qələbələr qazanmasını arzu edirik.

***Xuraman Feyruzqızı,***
***"Hacıqabul"***
***qəzetinin redaktoru***

# 11 aprel prezident seçkiləri günüdür

## *Seçkilərə hazırlıq işləri başa çatmışdır*

***Aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi dairə seçki komissiyasının əhatə etdiyi 48 seçki məntəqəsində seçki prosesinin tam şəffaf və demokratik şəraitdə keçməsi üçün bütün seçki məntəqələri lazımi texniki avadanlıqlar və metodiki vəsaitlərlə, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub.***

***Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələrı quraşdırılıb, seçki qutuları və lazımi avadanlıqlar gətirilərək məntəqələrə paylanılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Seçki məntəqələrinə səsvermə bülletenləri, mürəkkəb və ultrabənövşəyi lampalar və digər zəruri vəsaitlər gətirilib.***

***Seçki məntəqələri prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat materialları ilə təmin edilib. Seçicilərə səsvermənin keçirilmə vaxtı və seçki məntəqələrinin yeri barədə səsvermə bildirişləri paylanılıb.***

***Artıq Prezident seçkilərinə sayılı günlər qalıb. Hər bir seçici hüququ olan sakinimiz aprelin 11-də seçki məntəqələrinə gəlib vətəndaşlıq borcunu yerinə yetirəcək və istədiyi namizədə səs verəcək.***

# 92 yaşlı Gülüm baba:
# İnşallah aprelin 11-də seçkidə iştirak edəcəyəm

***92 yaşım var. Dövranımı sürmüşəm. Qanlı-qadalı Böyük Vətən Müharibəsinin ağır illərində acliq, məhrumiyyət çörək qıtlığı, sıxıntılılar görmüşəm. Allaha çox şükür, indi hər yanda bolluqdur. Azərbaycanımız indi ən xoş günlərini yaşayır. Böyük rəhbər, ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin olunandan sonra respublikamızda kənd təsərrüfatı, sənaye sahələri dinamik sürətlə inkişaf etməyə başladı, mədəniyyətimiz çiçəkləndi. 15 ilə yaxındır ki, ulu öndərin layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siması büsbütün, tanınmaz dərəcədə dəyişib.***

Ölkədə əhalinin yoxsulluq səviyyəsi kəskin surətdə azaldılıb, maaşlar, pensiyalar artırılıb, yeni iş yerləri açılıb, əhalinin əksəriyyəti işlə təmin olunub. Qaçqınların, məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması üçün onlar yeni mənzillərlə təmin olunub. Rayonlarımızda yeni zavodlar, müəssisələr inşa olunub, sənaye parkları salınıb. İndi Azərbaycanın ən ucqar kəndlərində, qəsəbələrində qazlaşdırma aparılmışdır, evlərdə mavi alov şölələnir.

Hacıqabula çoxsaylı səfərləri zamanı yeni infrastruktur layihələrin həyata keçirilməsinə, yeni xəstəxana və digər sosial-iqtisadi obyektlərin təməlinin qoyulmasına, istifadəyə verilməsinə imza atmışdır.

Mən bir ağsaqqal kimi İlham Əliyevin timsalında Azərbaycanın uğurlu gələcəyi, sürətli inkişaf yoluna çıxaran qətiyyətli, müdrik rəhbər görürəm, ölkədə sabitliyin, əmin-amanlığın vətəndaşlarımızın rahat yaşayışının ən etibarlı təminatçısı olan bir insanı görürəm. Aprelin 11-də cənab İlham Əliyevə səs verəcəyəm. Hər bir vətəndaşın azad seçki hüququ var. Odur ki, hər kəs istədiyi namizədə səs vermək üçün mütləq seçkilərdə iştirak etməlidir.

***Gülüm Ağayev,***
***Hacıqabul şəhəri,***
***Füzuli küçəsi-35***

# İlk dəfə səs verəcəyəm

***Bu il aprelin 8-də 18 yaşım tamam olur. Mən aprelin 11-də Prezident seçkilərində səsvermə hüququna malik olan bir vətəndaş kimi iştirak edəcəyəm. Mən artıq seçimimi etmişəm. Həmin gün mən cənab İlham Əliyevə səs verməklə ulu öndər Heydər Əliyevin ideyalarını və siyasətini öz əməllərində yaşadan və həyata keçirən bir insana, Azərbaycanı sürətli inkişaf yoluna çıxaran mükəmməl idarəetmə qabiliyyətinə malik müdrik dövlət xadiminə səs verəcəyəm.***

Cənab İlham Əliyevin rəhbərliyi ilə 14 ildən artıq bir müddət Azərbaycanın bütün bölgə və rayonları, şəhərləri nəhəng tikinti meydanına çevrilib. Hər bir bölgədə, o cümlədən bizim Hacıqabul rayonunda da böyük işlər görülüb, məktəblər, xəstəxanalar inşa olunub. Ölkəmizin iqtisadi uğurlarını hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Cənab İlham Əliyev gənclərimizə həmişə qayğı göstərib, idmançılarımızın beynəlxalq səviyyəli yarışlarda böyük uğurlar qazanmasında dəstək və dayaq olub. Dövlətimizin başçısı dünyanın nüfuzlu rəhbərləri arasında öz layiqli hörmətini qazanmışdır. "Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" deyən cənab İlham Əliyev xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılması üçün gördüyü əməli işlərlə, məqsədyönlü fəaliyyəti ilə bu sözlərin həqiqət olduğunu çoxdan sübut etmişdir. Odur ki, mən aprelin 11-də böyük həvəslə müstəqil Azərbaycan dövlətinin etibarlı və dayanıqlı sabahına-cənab İlham Əliyevə səs verəcəyəm.

***Mehdiyeva Raisa***
***Rövşən qızı,***
***Muğan qəsəbə sakini***

# HACIQABUL

◆ № 08 (688) 05 aprel 2018-ci il


## İnsanlığa qarşı törədilmiş ən ağır cinayət

(əvvəli səh. 2-də)

1918-ci il azərbaycanlılara qarşı törədilmiş soyqırımı tarixə unudulmaz, qara hərflərlə həkk olunmuş bir gün olub. Lakin tarix göstərir ki, nə qədər talanlar, soyqırımlar törədilsə də, ermənilər xalqımızın birliyini, mübarizə əzmini qıra bilməyiblər. Bu gün bizim güclü ordumuz, qüdrətli dövlətimiz var.

1918-ci il mart-aprel aylarında xalqımıza qarşı törədilən soyqırımların, amansız qətliamların bir məqsədi var idi. Xalqımızı milli etnos kimi yer üzündən silmək, tarixi ata-baba torpaqlarımıza yiyələnmək. Minlərlə azərbaycanlı əvvəlcədən düşünülmüş soyqırımı hadisələrinin qurbanı olub.

Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirdi, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı, deportasiya siyasətinin mahiyyəti açıqlanaraq ifşa olunub. Ümummilli liderin 1998-ci ilin 26 martında imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı tariximizin bu qaranlıq səhifələrinə işıq salan ilk rəsmi sənəd idi. Fərmana əsasən, 31 mart günü son yüz ildən artıq dövrdə erməni millətçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklərin qurbanı olmuş günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Hər il respublikamızda 31 mart günü hüznlə yad edilir, soyqırım qurbanları anılır. Tariximizin qan yaddaşı olan bu soyqırım aktları min illər keçsə belə xalqımızın yaddaşından silinməyəcək. 1918-ci ilin 31 martında törədilmiş qətliamlar Azərbaycan xalqının qan yaddaşında ən faciəli hadisələrdən biri kimi qalıb. Ermənilər tərəfindən Azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsi, etnik təmizləmə siyasəti XX əsrin sonlarında da davam edib. Ermənilərin törətdikləri cinayətlər bütün dünya tarixi üçün silinməz ləkədir və erməni vandalizmi cəzasız qalmayacaqdır.

*Camal Cəfərova,*
*rayon Qeydiyyat Şöbəsinin*
*rəisi, ədliyyə müşaviri*

## 2018-ci il aprel ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| | Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|---|
| 1 | İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| 2 | İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| 3 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| 4 | Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

## 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar rayonun ümumtəhsil məktəblərində müxtəlif səpkili tədbirlər keçirilmişdir



***Şəhər 5 saylı tam orta məktəbdə keçirilən tədbirdə məktəbin dil - ədəbiyyat müəllimi Aidə Hüseynovanın, tarix müəllimi Şəlalə Qəhrəmanovanın məruzəsi dinlənilib. Məruzədə 1918- ci il mart ayında ermənilərin Azərbaycanda törətdikləri vəhşiliklər haqqında məlumatlar şagirdlərin diqqətinə çatdırılıb. Sonda mövzu ilə əlaqədar müzakirə təşkil edilib, soyqırımla bağlı şagirdlərin fikirləri dinlənilib.***

Şəhər 1 saylı tam orta məktəbdə 31 Mart -Soyqırımının 100 illiyinə həsr olunmuş tədbirdə məktəbin müəllim və şagirdləri, eyni zamanda Şirvan şəhər 16 saylı məktəbin müəllimləri iştirak edib.

Tədbiri giriş sözü ilə məktəbin tarix müəllimi Elmira Babayeva açaraq xronoloji ardıcıllıqla tarix boyu xalqımızın başına gətirilən faciələrdən geniş məlumat verib. XVIII əsrdən başlayaraq 1992-ci ilə qədər xalqımızın istiqlal mübarizəsindən-31 Mart soyqırımı, 20 Yanvar faciəsi, Xocalı soyqırımından danışaraq onların başvermə səbəblərinə aydınlıq gətirib. Quba məzarlığının tarixindən danışarkən 55 nəfərin sümükləri arasında qadın və uşaq sümüklərinin çoxluqunu vurğulayıb.

Tədbirin gedişində məktəbin IX sinif şagirdləri Zenfira Başirova və Fidan İbrahimliinin ifasında vətənpərvərlik mövzusunda şeirlər dinlənilib, VI sinif şagirdlərinin ifasında "31 Mart xatirələri" adlı səhnəcik nümayiş etdirilib. VIII sinif şagirdləri Aysun Poladova və Aygün Cəbrayılovanın ifasında "Ana mən şəhid oldum" adlı mahnı dinlənilib.. Sonda VI sinif şagirdlərinin ifasında " Biz qalib gələcəyik " mahnısı ilə tədbirə yekun vurulub.

Şəhər V.Quliyev adına 6 saylı tam orta məktəbdə 31 mart azərbaycanlıların soyqırım gününə həsr olunmuş dəyirmi masa keçirilib.

Dəyirmi masanı giriş sözü ilə məktəbin tarix müəllimi Gülnar İbişova açıb. O, soyqırım haqqında şagirdləri ətraflı məlumatlandırıb. Şagirdlər 31 mart soyqırımı ilə əlaqədar öz fikirlərini söyləyib, hadisə ilə əlaqədar fikirlər müzakirə olunub. Tədbir şagirdlərin hazırladıqları ədəbi-bədii kompazisiya ilə sona çatıb.

Şəhər 9 saylı tam orta məktəbdə 31 Mart azərbaycanlıların Soyqırımının 100-cü ildönümünə həsr olunmuş şeir müsabiqəsi keçirilib. Müsabiqədə II, V, VI, VII, VIII sinif şagirdlərindən ibarət 16 şagird iştirak edib.

Şagirdlərə tariximizin Qan yaddaşı haqqında ətraflı məlumat verilib və 31 Mart Soyqırım şəhidlərinin və bütün Azərbaycan şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şagirdlərin ifasında şeirləri dinlənilib. Şagirdlər arasında istedadına görə M.Nərmin, Ə.İradə, K.Həcər, B.Gunay, H.Mədinə həvəsləndirici yerlərə layiq görülüblər. Məktəbin direktoru Elbrus Əliyev şagirdlərə əsl vətənpərvərliyin sözdə yox, əməllərində göstərməyi tövsiyə edib və şagirdlərə təhsildə uğurlar arzulayıb.

31 mart Azərbaycanlıların Söyqırımı günü ilə əlaqədar Kolanı kənd tam orta məktəbdə mühazirə, şəhər 2 saylı tam orta məktəbdə şeir müsabiqəsi, şəhər 7 saylı tam orta məktəbdə şagirdlərin rəsmlərindən ibarət sərgi, Navahı qəsəbə 2 saylı tam orta məktəbdə dəyirmi masa keçirilib,

Şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb liseydə "Tarixin bir günü və ya bir günün tarixi " adlı sənədli film nümayiş olunub.

Keçirilən tədbirlərdə şagirdlərə tarixi həqiqətlərin çatdırılması, şagirdlərdə hərbi vətənpərvərlik hissinin aşılanması istiqamətində söhbətlər aparılıb, soyqırımla əlaqədar hadisələr şagirdlərin diqqətinə çatdırılıb.

*Günel Mustafayeva,*
*rayon Təhsil Şöbəsinin*
*metodisti*

## Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir



Rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir" adlı tədbir keçirildi. İlk əvvəl Mərkəzin rəsm kursu üzvlərinin müharibə və hərbi vətənpərvərlik mövzusunda çəkdikləri rəsmlərdən ibarət sərgiyə tamaşa olundu. Sonra dəyirmi masa ətrafında tədbir davam etdirildi. Vətən uğrunda canlarından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Mərkəzin baş fond mühafizi Bahar Abasova "Qələbə bizimdir" adlı, şəhər 10 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Amin Rəhimov "Əsgərə məktub" adlı məruzə ilə çıxış etdi. Tədbirin sonunda Aprel döyüşlərinə həsr olunmuş video çarxa tamaşa edildi.

*Aytən Zülfəliyeva,*
*rayon Heydər Əliyev*
*Mərkəzinin direktoru*

## Elan

**Ağayev Mətləb İnqilab oğlunun adına verilmiş JN-629 saylı yaşayış evinin Şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

## Narkomaniya əsrin bəlasıdır

***Rayon Heydər Əliyev Mərkəzində "Narkomaniya əsrin bəlasıdır" adlı dəyirmi masa keçirildi. Tədbirdə mədəniyyət işçiləri, məktəblilər və Mərkəzin rəsm kursunun üzvləri iştirak etdilər.***

Tədbir iştirakçılarına narkomaniya və onun fəsadları barədə geniş məlumat verildi. Sonra MKS-nin 30 saylı filialının müdiri Leyla Əliyeva, 2 saylı filialının müdiri Şəhla Salmanova və Mərkəzin rəsm kursunun üzvü Amin Rəhimov çıxış etdilər. Həmçinin rəsm kursu üzvlərinin narkomaniyaya həsr etdikləri rəsmlər də sərgiləndi.

Tədbirin sonunda narkomaniyaya həsr olunmuş "Hədəf" adlı qısametrajlı film nümayiş olundu.

*Aytən Zülfəliyeva*

## Allah rəhmət eləsin!

M.Ağayev adına Navahı kənd tam orta məktəbinin direktoru İbrahim Əliyev və məktəbin pedaqoji kollektivi iş yoldaşları

**Ağayev Əzizağa Mirbala oğlunun**

vəfatından kədərləndiklərini bildirir, mərhmun yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verirlər.


**HACIQABUL**

**Baş redaktor:** Xuraman Feyruzqızı

**Həmtəsisçi:** Qəzetin jurnalist kollektivi

Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200